# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASI ƏRƏFƏSİNDƏ ƏTRAF MÜHİT MƏSƏSLƏLƏRİNƏ MÜNASİBƏT

**Əhmədov Ə.E.**

*Bakı Dövlət Universiteti*
*Emrah_sniper246@bk.ru*

1917-ci ildə Zaqafqaziya ərazisində müvəqqəti hökümət qurulduqdan sonra tədbirlər iyerarxiyasında əsas yer kəndlilərin torpaqları zəbt etməsinin qarşısının alınması məsələ dururdu. Bu məsələ ilə bağlı görülən ilkin addım bundan əvvəlki idarəedici çar ailəsinə aid olan bütün mülkiyyətin (yararlı torpaqlar,su resursları, meşələr) dövlət mülkiyyətinə keçirilməsi oldu. Müvəqqəti hökümət xalqı bu sahədə islahat aparılmasının vacibliyinə inandıra bilmişdi. Zaqafqaziya Komitəsi inzibati ərazilərdə bəzi özbaşına kəndlilərin torpaqların zəbt etməsindən narahatlıq hissi keçirir, bəzi hallarda isə bu addımları atanları hədələyirdi. Bu dövrdə müzakirə edilən məsələlər arasında torpaq mülkiyyətinin alqı-satqısına qadağanın qoyulması, kəndlilərin torpaq üzərində sərəncam hüquqlarının məhdudlaşdırılması var idi. Qeyri-qanuni yollarla alqı-satqı dövlətin iqtisadi cəhətdən zərbə vurub maliyyə sahəsində problemlərin yaranmasına çıxaracaqdır. Bu dövrdə yaradılan Baş Torpaq Komitəsi quberniyalarda, qəzalarda yerli idarəetməninin mümkünlüyünü ortaya çıxarmışdır. Baş verən hər bir dəyişiklik Torpaq Məcəlləsi tərəfindən nizamlanmalı idi.

1917-1920-ci illər Azərbaycan tarixinin hadisə və proseslərlə zəngin mərhələsi kimi dəyərləndirilə bilər. Ümumiyyətlə, həmin illər imperiyaların süqutu, inqilablar və müharibələrin vüsətlənməsi, xalqların oyanışı və təşəkkülü proseslərində yeni yüksəliş dövrü kimi xarakterizə oluna bilər. XX əsrin ikinci onilliyinin sonuncu iki ili ərzində Qədim Şərqin sivilizasiya ocaqlarından sayılan Azərbaycan ərazisində müstəqil Demokratik Cümhuriyyət bərqərar oldu.




**Diaqram. XX əsrrin əvvəllərində əkinə yararlı torpaqların paylanma göstəriciləri**

**Baxmayaraq ki, cümhuriyyətin mövcudluğu zaman tutumu etibarilə çox az bir müddəti əhatə edir, lakin müstəqilliyin elan edilməsi hərbi-siyasi təcavüz və mədəni-iqtisadi əsarət altında olan Azərbaycanın mühüm nailiyyəti sayıla bilər. Çünki Azərbaycanın əsrləri əhatə edəcək dövlətçilik ənənələri olmasına baxmayaraq həmin ənənələr nəinki inkişaf etdirilərək Azərbaycan cəmiyyətinin təşkili və idarə edilməsinə yönəldilmiş, çar imperiyası tərəfindən demək olar ki, tamamilə ləğv edilməkdə idi. Rusiyada imperialist monarxiya süqut etdikdən sonra Azərbaycan çox az bir müddət ərzində olsa belə siyasi müstəqilliyini bərpa etdi. Müstəqil dövlətin fəaliyyəti və mövcudluğu üçün bütün gerçəkliklər tarixi fakta çevrildi.**